AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

# BUNLARI BİLMƏK MARAQLIDIR



*tələbələr üçün statistika*

2016

**Əziz dost!**

Müasir dövrdə cəmiyyətin inkişafını informasiyasız təsəvvür etmək çətindir. İnformasiyaya tələbat insanın yaşadığı bütün dövrlərdə olsa da, bəşəri inkişafın indiki mərhələsində informasiyanın vacibliyi, onun oynadığı rol müqayisəolunmaz dərəcədə artmışdır. Məhz bu baxımdan XXI əsr informasiya, biliklər əsri kimi də tanınır. Bu informasiyanın formalaşmasında isə statistikanın müstəsna rolu var. Cəmiyyətdə baş verən sosial-iqtisadi hadisələrin öyrənilməsi, onların inkişaf qanunauyğunluqlarının müəyyən edilməsi və gələcəkdə həmin proseslərə səmərəli təsir vasitələrinin, onların istiqamətlərinin aşkarlanmasında statistika əsas məlumat mənbəyi kimi çıxış edir. Dövlət Statistika Komitəsinin hazırladığı bu kitabça statistikanın inkişaf tarixinə qısa səyahət etməklə həyatımızın müxtəlif sahələrini xarakterizə edən faktlar və rəqəmlərin verilməsi əsasında statistikanın nə dərəcədə maraqlı sahə olduğunu göstərir. Bu vəsaitin hazırlanmasında məqsəd sosial-iqtisadi hadisələri ətraflı şəkildə xarakterizə edən kəmiyyət məlumatlarının verilməsi olmasa da, ümid edirik ki, burada olan faktlar və rəqəmlərdən istifadə Sizin işinizdə faydalı olacaqdır.





**“Vaxt gələcək ki, statistik düşüncə tərzi insana oxumaq və yaza bilmək bacarığı qədər vacib olacaq”.**
Samuel Stenli Uilks
(amerikalı riyaziyyatçı və statistik, 1906-1964)

**“Peşəkar statistiklər bizim dünyamızı yeni kəşflərin açılması və ya texniki nailiyyətin əldə olunması ilə deyil, bizim düşüncə və tədqiqatlarımızın istiqamətləndirilməsinə, fikrimizin formalaşmasına təsir etməklə dəyişirlər”.**
Yan Hakinq (kanadalı filosof, 1936)

## Statistika nə deməkdir?

Statistikanın yaranması tarixi qədimdir. “**Statistika**” termini mənşəcə latın sözü olan və orta əsrlər dövründə dövlətin siyasi vəziyyəti mənasını verən “**status**”dan əmələ gəlmişdir. Elmə bu termin XVII əsrdə daxil edilmişdir və o zaman dövlətşünaslıq mənasını daşıyırdı. Statistika müasir anlamda elm kimi formalaşana qədər çoxəsrlik inkişaf tarixi keçmişdir. Hər hansı hadisələri xarakterizə edən rəqəm məlumatları hələ qədim dövrlərdə istifadə olunmağa başlanmışdır. Çində bizim eradan əvvəl V minillikdə əhalinin sayı hesablanırdı, Qədim Romada mülkiyyətin uçotu aparılırdı, orta əsrlərdə əhalinin, ev təsərrüfatlarının əmlakının və torpaqların siyahıyaalınması təşkil edilirdi. Belə məlumatların əldə edilməsi vasitələri müxtəlif idi. Məsələn, fars hökmdarı Dara (b.e.ə. 522-486) öz ordusunun sayını hesablamaq üçün hər bir döyüşçüdən müəyyən olunmuş yerə daş gətirib qoymasını tələb edirdi. Müasir dövrdə “statistika” sözü bir neçə mənalarda işlədilir.

Birincisi, o, hər hansı hadisə barədə **kəmiyyət məlumatı kimi** başa düşülür. Bu mənada statistika müxtəlif təbii və texniki elmlər

bölmsinə daxil edilir. Biz hava ilə bağlı məlumatları, idman oyunlarının nəticələri, tikilmiş evlərin sayı, yığılmış taxılın miqdarı, Avroviziya musiqi yarışmasında səsvermənin nəticələri və s. məlumatlarla əhatə olunmuşuq. Hər bir tələbə aldığı qiymətlər üzrə həm özünün, həm də bütün qrupun müvəffəqiyyətini xarakterizə edən statistika formalaşdırır.

İkincisi, statistika **praktik fəaliyyət sahəsi** kimi başa düşülür. İlk növbədə dövlət orqanlarının informasiyaya tələbatlarını ödəmək üçün rəsmi statistikanın olması vacibdir. Azərbaycan Respublikasında bu vəzifəni Dövlət Statistika Komitəsi həyata keçirir və ölkə haqqında statistikanı formalaşdırır: biz nə qədərik, biz necəyik, biz necə yaşayırıq və işləyirik və s.

Statistika həmçinin rəqəm məlumatları ilə işin prinsip və metodlarını özündə cəmləşdirən elm bölməsi kimi də tanınır. Əgər gələcəkdə Sizlərdən kimsə qərara gəlsə ki, statistik olmaq istəyir, onda o, bu ixtisası Azərbaycan Dövlət İqtisad Universitetində ala bilər. Bu çox maraqlı peşədir, çünki statistiklərin əməyi hamıya lazımdır.



**Əhali**

Əhalinin sayı və tərkibi haqqında məlumatların əsas mənbəyi əhalinin siyahıyaalınmalardır. Əhalinin siyahıyaalınması BMT-nin İqtisadi və Sosial Şurasının qərarına əsasən dünya ölkələrində həyata keçirilən əhalinin və mənzil fondunun siyahıyaalınmasının Ümumdünya proqramının tərkib hissəsidir.

BMT-nin metodologiyasına görə əhalinin siyahıyaalınması ölkə ərazisində yaşayan bütün şəxslər haqqında sosial-iqtisadi, coğrafi-demoqrafik və etnik-mədəni əlamətlər üzrə məlumatların toplanmasının, ümumiləşdirilməsinin və dərc edilərək yayılmasının vahid prosesidir. BMT-nin "Əhali və mənzil fondunun siyahıyaalınması"nın tövsiyələrində əhalinin siyahıyaalınmasının üzv ölkələr tərəfindən 10 ildə bir dəfədən az olmayaraq keçirilməsi qeyd olunmuşdur.

2005-ci ildən 2014-cü ilədək bütün dünyada əhalinin və mənzil fondunun siyahıyaalınmasının 2010-cu il raundu keçirilmiş və 1 iyun 2012-ci il tarixinə dünyanın 184 ölkəsi bu tədbirdə iştirak etmişdir. Azərbaycan Respublikasında əhalinin əvvəlki siyahıyaalınmaları 1926, 1939, 1959, 1970, 1979, 1989-cu illərdə, müstəqillik dövründə isə 1999-cu və 2009-cu illərdə keçirilmişdir.

Hazırda yer kürəsində 7 milyarddan artıq əhali yaşayır. Azərbaycan Respublikasında əhalinin sayı 1 yanvar 2016-cı il tarixinə 9705,6 min nəfər olmuş və əhalinin sıxlığı bir kvadrat kilometrə 112 nəfər təşkil etmişdir. Müasir cəmiyyətdə baş verən sosial-iqtisadi proseslər ölkədə urbanizasiyanın artmasına gətirib çıxarmışdır. Belə ki, əgər 2000-ci ildə şəhər əhalisinin xüsusi çəkisi 51,1 faiz olmuşdursa, 2016-cı ilin əvvəlinə 53,1 faiz təşkil etmişdir.

Əhalisinin sayına görə dünyanın **ən böyük** ölkələri:

Çin - 1 372 mlyn. nəfər; Hindistan – 1 314 mlyn. nəfər; ABŞ – 321 mlyn. nəfər; İndoneziya – 256 mlyn. nəfər.

**Ən kiçik** ölkə Vatikandır – əhalisinin sayı min nəfərə yaxındır.

01.01.2016-cı il vəziyyətinə Azərbaycan Respublikasının əhalisinin yaş–cins tərkibi aşağıdakı kimi olmuşdur.

### Cins üzrə əhalinin sayı
(ilin əvvəlinə, min nəfər)

| İl | Kişilər | Qadınlar |
|---|---|---|
| **2016** | 4835.6 | 4870.0 |

### Hər 1000 kişiyə düşən qadınların sayı
(ilin əvvəlinə, nəfər)

| İl | Hər 1000 kişiyə düşən qadınların sayı |
|---|---|
| **2016** | 1007 |

Ümumilikdə, dünyada kişilərin sayı qadınlardan bir qədər çoxdur. Kişilərin sayının üstünlük təşkil etdiyi ölkələr arasında Çin, Hindistan, Türkiyəni göstərmək olar.

### Yaş qrupları üzrə əhalinin sayı
(ilin əvvəlinə, min nəfər)



| Yaş qrupları | 2016 |
|---|---|
| **Cəmi** | |
| o cümlədən yaş qrupları üzrə: | |
| 0-4 | 851.9 |
| 5-9 | 709.3 |
| 10-14 | 625.7 |
| 15-19 | 693.0 |
| 20-24 | 873.3 |
| 25-29 | 943.6 |
| 30-34 | 840.0 |
| 35-39 | 709.3 |
| 40-44 | 613.8 |
| 45-49 | 655.7 |
| 50-54 | 660.7 |
| 55-59 | 580.7 |
| 60-64 | 351.1 |
| 65-69 | 222.3 |
| 70-74 | 104.0 |
| 75-79 | 151.0 |
| 80 və yuxarı | 120.2 |
| əmək qabiliyyətli yaşda[1)] | 6677.8 |

[1)] 2016-cı ilin əvvəlinə – kişilər 15–62, qadınlar 15–59 yaşda.

**18 yaşadək uşaqların xüsusi çəkisi**
(ilin əvvəlinə, əhalinin ümumi sayına nisbətən, faizlə)

| İl | 18 yaşadək uşaqların xüsusi çəkisi |
|---|---|
| **2016** | 26.7 |

**Gənclərin xüsusi çəkisi**
(ilin əvvəlinə, əhalinin ümumi sayına nisbətən, faizlə)

| İl | 15-29 yaşlı əhalinin xüsusi çəkisi |
|---|---|
| **2016** | 27.1 |

Hər il qız uşaqları ilə müqayisədə daha çox oğlan uşaqları doğulur. Lakin, 30 yaşadək onların sayı təxminən bərabərləşir.

Ötən il Azərbaycanda 166.2 min uşaq dünyaya gəlmişdir. Doğulan uşaqların 53.2%-ni oğlanlar, 46.8%-ni qızlar təşkil etmişdir.

2015-ci ildə 3068 əkiz, 84 üçəm və 8 dördəm doğulmuşdur. Oğlan uşaqları üçün qoyulmuş ən geniş yayılan adlar Yusif, Hüseyn, Əli, Ömər, Məhəmməd, Murad, Ayxan, qızlar üçün isə – Zəhra, Fatimə, Nuray, Zeynəb, Aylin və Ayan olmuşdur.

Müəyyən dövr ərzində əhalinin sayının dəyişməsini xarakterizə etmək üçün **əhalinin təbii artımı** göstəricisindən istifadə olunur.

**Əhalinin təbii artımını** hesablamaq üçün doğulanların ümumi sayından ölənlərin ümumi sayını çıxmaq lazımdır.

**Əhalinin təbii artımı**

| İl | əhalinin hər 1000 nəfərinə |
|---|---|
| **2015** | 11.7 |

**Doğulanlar və ölənlər**
(əhalinin hər 1000 nəfərinə)

| İl | Doğulanlar | Ölənlər |
|---|---|---|
| **2015** | 17.4 | 5.7 |

Əhalinin təbii artım əmsalı əhalinin hər min nəfərinə əsasən hesablanır.

**Əhalinin təbii artımının əmsalı** doğum və ölüm əmsallarının (əhalinin hər 1000 nəfərinə) fərqi kimi hesablanır. Bu əmsal promille (‰) ilə ölçülür, bu da ədədin mində birinə və ya faizin onda birinə bərabərdir.

2015-ci ildə Azərbaycan Respublikasında əhalinin təbii artım əmsalı 11,7 ‰ olmuşdur. Dünyanın bir çox ölkələrində əhalinin təbii artımı müsbətdir. Məsələn, Əfqanistanda 24,72‰, İraqda 22,28‰, Tacikistanda 18,71‰, Misirdə 18,58‰. Depopulyasiya hadisəsi, yəni ölüm əmsalının doğulmaları qabaqlaması bir çox Avropa ölkələri üçün xarakterikdir (Ukrayna -6,31‰, Almaniya -2,87‰, Litva -2,19‰, Polşa -0,60‰).

Əhalinin sağlamlıq vəziyyətini xarakterizə edən əsas göstəricilərdən biri olan, ölüm səviyyəsini müəyyən edən kompleks göstərici **əhalinin gözlənilən ömür uzunluğudur**. Doğulanda gözlənilən ömür uzunluğu – doğulanların hər birinin orta hesabla yaşaya biləcəyi illərin sayını göstərir. Burada doğulanların bütün ömrü boyu ölümün səviyyəsinin hər yaş qrupu üzrə göstəricinin hesablandığı ildəki səviyyədə dəyişməz qalacağı şərti qəbul edilir. 2015-ci ildə Azərbaycan Respublikasında doğulanda gözlənilən ömür uzunluğu 75,2 il təşkil etmiş, bu, kişilərdə – 72,7 il, qadınlarda isə – 77,6 il olmuşdur.

**2015-ci ildə bəzi dünya ölkələrində doğulanda gözlənilən ömür uzunluğu** (yaş sayı)

| Ölkə | İl |
|---|---|
| ABŞ | 79 |
| Almaniya | 81 |
| Böyük Britaniya | 81 |
| Çin | 76 |
| Gürcüstan | 74 |
| Qazaxıstan | 70 |
| Rusiya | 71 |
| Türkiyə | 76 |
| Ukrayna | 71 |
| Yaponiya | 84 |

2016-cı ilin əvvəlinə Azərbaycanda yaşı 100-dən artıq olan 626 nəfər, o cümlədən 96 kişi, 530 qadın yaşamışdır.

## Təhsil

2015/2016-cı tədris ilinin əvvəlinə ölkənin 54, o cümlədən 41 dövlət və 13 özəl ali təhsil müəssisəsində ali təhsil sahəsində təlim proqramları həyata keçirilir. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı üç səviyyəlidir:

- bakalavriat (tibb təhsili istisna olmaqla);
- magistratura (tibb təhsili istisna olmaqla);
- doktorantura.

Birinci dərəcə - *bakalavr*. Bu dərəcədə təhsil 4 il davam edir. Bakalavriatı bitirən məzunlara «bakalavr» ali peşə-ixtisas dərəcəsi verilir. Proqramın hazırlanması dövlət imtahanının verilməsi və (və ya) diplom işinin müdafiəsi ilə başa çatır. Bakalavriat təhsili almış məzunların əmək fəaliyyəti elmi tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla, bütün digər sahələri əhatə edir.

**Ali təhsil müəssisələrində "bakalavr" səviyyəsi üzrə təhsil alan tələbələrin sayı**
(tədris ilinin əvvəlinə)

| | 2014/2015 | | 2015/2016 | |
|---|---|---|---|---|
| | Cəmi | o cümlədən qadınlar | Cəmi | o cümlədən qadınlar |
| Ali təhsil müəssisələrində "bakalavr" səviyyəsi üzrə təhsil alan tələbələrin sayı - cəmi, nəfər | 145466 | 69854 | 148845 | 71918 |
| o cümlədən: | | | | |
| dövlət müəssisələrində | 125295 | 61366 | 129671 | 63833 |
| qeyri-dövlət müəssisələrində | 20171 | 8488 | 19174 | 8085 |

İkinci dərəcə - *magistr*. Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara

peşəkar fəaliyyətlə yanaşı, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Magistratura təhsili magistr dissertasiya işinin müdafiəsi ilə başa çatır və həmin dissertasiyanı müvəffəqiyyətlə müdafiə etmiş məzunlara «magistr» ali elmi-ixtisas dərəcəsi verilir.

**Ali təhsil müəssisələrində "magistr" səviyyəsi üzrə təhsil alanların sayı**
(tədris ilinin əvvəlinə, nəfər)

| | 2014/2015 | | 2015/2016 | |
|---|---|---|---|---|
| | Cəmi | o cümlədən qadınlar | Cəmi | o cümlədən qadınlar |
| Ali təhsil müəssisələrində "magistr" səviyyəsi üzrə təhsil alanların sayı - cəmi, nəfər | 12746 | 6841 | 12389 | 6744 |
| o cümlədən: | | | | |
| dövlət müəssisələrində | 11331 | 6078 | 10971 | 5998 |
| qeyri-dövlət müəssisələrində | 1415 | 763 | 1418 | 746 |

Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunkturalarda) həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində və elmi təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında qanunvericiliyə uyğun olaraq verilir.

Azərbaycan Respublikasında aşağıdakı elmi dərəcələr mövcuddur:

- fəlsəfə doktoru – elm sahələri göstərilməklə;
- elmlər doktoru – elm sahələri göstərilməklə.

## Doktorantların sayı, nəfər

| | 2014 | 2015 |
|---|---|---|
| Fəlsəfə doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların sayı – cəmi | 2400 | 2282 |
| o cümlədən qadınlar | 1307 | 1256 |
| Elmlər doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların sayı – cəmi | 535 | 593 |
| o cümlədən qadınlar | 233 | 266 |

Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə müəyyən edilmiş qaydada həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd – diplom verilir.

Azərbaycan Respublikası son illərdə təhsilin maliyyələşdirilməsi sahəsində ciddi irəliləyişə nail olunmuşdur. Belə ki, yalnız **dövlət büdcəsindən** bu sahəyə ayrılan ümumi xərclər 2010-cu ildəki 1180,8 milyon manatdan 2014-cü ildə 1553,9 milyon manatadək artmışdır. Bu göstəricilər ali təhsil üzrə müvafiq olaraq 132,0 milyon manatdan 160,6 milyon manata qədər yüksəlmişdir. Bununla yanaşı, digər mənbələrdən də ali təhsilə kifayət qədər vəsait daxil olur.

Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almasını və ölkənin inkişafında yaxından iştirak etməsini təmin etmək məqsədi ilə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikasının Prezidenti 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncam imzalayıb. Bu Sərəncama uyğun olaraq hazırlanmış "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" istedadlı Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılması məqsədlərinə xidmət edir.

Hazırda 20 mindən çox azərbaycanlı gənc dünyanın bir çox xarici ölkələrinin ali təhsil müəssisələrinin bakalavr, magistratura və doktorantura pillələrində təhsil alır, onların 2998 nəfəri dövlət xətti

ilə, o cümlədən 2418 nəfəri "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil alanlardır. Bu ölkələr arasında ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Yeni Zellandiya, Avstriya, Yaponiya, Avstraliya, Koreya Respublikası, İsveç, Niderland, Çexiya və digərlərini göstərmək olar.

2015/2016-cı tədris ilində üstünlük verilən ixtisaslar texniki və fundamental elm, sənaye, kənd təsərrüfatı, tibb ixtisasları olmuşdur.

2014/2015-ci tədris ilində isə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil almaq üçün biologiya, fizika, mühəndislik, nano-texnologiya, sənaye, riyaziyyat, tibb ixtisasları üstünlük verilən ixtisaslar kimi təyin edilmişdir.

**2015/16-cı tədris ilində xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı** (tədris ilinin əvvəlinə, nəfər)




Azərbaycanın ali təhsil müəssisələrində çoxsaylı ölkələrdən xarici vətəndaşlar da təhsil alırlar. 2015/16-cı tədris ilində əcnəbi tələbələrin sayı 3425 nəfər təşkil etmişdir.

**2015/16-cı tədris ilində ali təhsil müəssisələrində təhsil alan xarici vətəndaşların sayı** (tədris ilinin əvvəlinə)




Dövlət ali təhsil müəssisələrinin əyani şöbələrində dövlət sifarişi ilə təhsil alan tələbələr “əla”, “yaxşı” və “yaxşı-kafi” oxuduqlarına görə təqaüd alırlar. Həmçinin Azərbaycan Respublikasının Prezidentinin təqaüdü və adlı təqaüdü də mövcuddur.

Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 2015-ci il tarixli Sərəncamına əsasən, tələbələrin sosial müdafiəsini daha da gücləndirmək məqsədilə dövlət ali və orta ixtisas təhsil müəssisələrində oxuyan tələbələrə verilən təqaüdlərin məbləği artırılmışdır.

## Təqaüdlər, manat

| | 01.02.2016-cı il tarixindən |
|---|---|
| **Ali təhsil müəssisələri üzrə** | |
| adlı təqaüd alan tələbələrə | 120 |
| **bakalavr pilləsi üzrə** | |
| əla qiymətlərlə oxuyanlara | 95 |
| əla və yaxşı oxuyanlara | 80 |
| yaxşı-kafi oxuyanlara | 50 |
| **magistr pilləsi üzrə** | |
| əla qiymətlərlə oxuyanlara | 105 |
| əla və yaxşı oxuyanlara | 85 |
| yaxşı-kafi oxuyanlara | 55 |
| **Doktorantura**<br>elmlər doktoru hazırlığı üzrə | 220 |
| fəlsəfə doktoru hazırlığı üzrə | 120 |

Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir. Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda (Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşma əsasında) ümumi təhsil müəssisəsində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər.

## MDB ölkələrində ali təhsil müəssisələri və orada təhsil alan tələbələrin sayı (tədris ilinin əvvəlinə)

| | Ali təhsil müəssisələrinin sayı | ondan: | | Tələbələrin sayı, min nəfər | ondan: | | |
|---|---|---|---|---|---|---|---|
| | | Dövlət | Qeyri-dövlət | | Dövlət | onlardan ödənişli əsaslarla | Qeyri-dövlət |
| **Azərbaycan** | | | | | | | |
| 2014/2015 | 53 | 39 | 14 | 158 | 136 | 85 | 22 |
| **Belarus** | | | | | | | |
| 2014/2015 | 54 | 45 | 9 | 363 | 328 | 190 | 35 |
| **Ermənistan** | | | | | | | |
| 2014/2015 | 65 | 25 | 40 | 94 | 83 | 70 | 11 |
| **Qazaxıstan** | | | | | | | |
| 2014/2015 | 126 | 49 | 77 | 477 | 232 | 223 | 245 |
| **Qırğızıstan** | | | | | | | |
| 2014/2015 | 53 | 34 | 19 | 214 | 189 | 161 | 25 |
| **Moldova** | | | | | | | |
| 2014/2015 | 32 | 19 | 13 | 90 | 73 | 37 | 17 |
| **Rusiya** | | | | | | | |
| 2014/2015 | 950 | 548 | 402 | 5209 | 4406 | 2345 | 803 |
| **Tacikistan** | | | | | | | |
| 2014/2015 | 37 | 36 | 1 | 165 | 163 | 97 | 2 |
| **Ukrayna** | | | | | | | |
| 2014/2015 | 277 | 197 | 80 | 1438 | 1310 | 752 | 128 |



## 2014-cü ildə ali təhsil müəssisələrinə qəbul olunanların sayı

| | Qəbul olunanlar, min nəfər | ondan: | |
|---|---|---|---|
| | | Dövlət ali təhsil müəssisələri | Qeyri-dövlət ali təhsil müəssisələrinə |
| **Azərbaycan** | 36 | 31 | 5 |
| **Belarus** | 63 | 59 | 4 |
| **Ermənistan** | 25 | 23 | 2 |
| **Qazaxıstan** | 125 | 63 | 62 |
| **Qırğızıstan** | 32 | 28 | 4 |
| **Moldova** | 24 | 20 | 4 |
| **Rusiya** | 1192 | 1021 | 171 |
| **Tacikistan** | 31,4 | 31,2 | 0,2 |
| **Ukrayna** | 292 | 268 | 24 |



## 2014-cü ildə ali təhsil müəssisələrini bitirənlərin sayı

| | Məzunların sayı, min nəfər | ondan: | |
|---|---|---|---|
| | | Dövlət ali təhsil müəssisələri | Qeyri-dövlət ali təhsil müəssisələri |
| **Azərbaycan** | 33 | 29 | 4 |
| **Belarus** | 81 | 71 | 10 |
| **Ermənistan** | 27 | 23 | 4 |
| **Qazaxıstan** | 178 | 76 | 102 |
| **Qırğızıstan** | 41 | 36 | 5 |
| **Moldova** | 24 | 20 | 4 |
| **Rusiya** | 1226 | 1018 | 208 |
| **Tacikistan** | 30,5 | 30,0 | 0,5 |
| **Ukrayna** | 405 | 363 | 42 |

**2014/15-ci tədris ilində MDB ölkələrinin ali təhsil müəssisələrində təhsil alan xarici tələbələrin sayı**

(tədris ilinin əvvəlinə, min nəfər)

| | Qəbul | | Təhsil alanların sayı | | Buraxılış | |
|---|---|---|---|---|---|---|
| | xarici tələbə | o cümlədən MDB-dən | xarici tələbə | o cümlədən MDB-dən | xarici tələbə | o cümlədən MDB-dən |
| **Azərbaycan** | 0,8 | 0,2 | 3,7 | 0,6 | 0,8 | 0,1 |
| **Belarus** | 3,2 | 2,4 | 14,1 | 11,0 | 2,1 | 1,5 |
| **Ermənistan** | 0,8 | 0,3 | 3,6 | 1,2 | 0,7 | 0,3 |
| **Qazaxıstan** | 3,2 | 2,3 | 9,1 | 6,4 | 1,5 | 1,1 |
| **Qırğızıstan** | ... | ... | 12,7 | 8,5 | ... | ... |
| **Moldova** | 0,7 | 0,1 | 2,5 | 0,3 | 0,3 | 0,1 |
| **Rusiya** | 60,6 | 48,4 | 190,2 | 151,2 | 29,8 | 22,2 |
| **Tacikistan** | 0,3 | 0,1 | 1,8 | 1,3 | 0,4 | 0,3 |
| **Ukrayna** | 6,9 | 1,9 | 56,8 | 28,3 | 7,1 | 3,0 |

Ümumi Avropa təhsil məkanın yaradılması prosesi (Boloniya prosesi) ali təhsilin strukturunda əhəmiyyətli dəyişikliyə səbəb olmuşdur. Yeniliklərdən biri ikipilləli təhsil sisteminə keçid oldu: bakalavr (üç ildən az olmayan müddətdə təhsil) və magistratura (iki il). MDB-yə üzv ölkələrin çoxunda mütəxəssis hazırlığı 5 il çəkir. Yeni sistem tələbələrin mobilliyini işdüzəlmə baxımdan artırmaqla vahid Avropa ali təhsil zonasının yaranmasına xidmət edir. Bundan başqa, bu sistem gələcək məzunlara bakalavr səviyyəsində öz biliklərini, bacarıqlarını təkmilləşdirməyə və magistr səviyyəsində isə daha dar, ixtisaslaşmış sahələrdə mütəxəssis olmağa kömək edir.

# İdman

Sağlam nəslin yetişməsində idmanın rolu əvəzsizdir. Ölkədə baş verən inkişaf prosesi bütün sosial sferanı, o cümlədən idman sahəsini də əhatə edir və nəticədə bu istiqamət üzrə qazanılan nailiyyətlər ilbəil artır.

2009-cu il 30 iyun tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bədən tərbiyəsi və idman haqqında" Qanunun imzalanması ölkədə bədən tərbiyəsi və idmanın inkişafı üçün daha geniş imkanlar yaratmışdır.

Azərbaycan idmançıları son illərdə beynəlxalq yarışlarda, o cümlədən Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında, kubok yarışlarında, eləcə də digər rəsmi beynəlxalq yarışlarda yüksək nəticələr göstərərək böyük uğurlara imza atmışlar.

Yalnız son beş ildə idmançılarımız rəsmi beynəlxalq yarışlarda 1401 qızıl, 1147 gümüş, 1302 bürünc medal qazanaraq onların ümumi sayını 3850-ə çatdırmışlar. 2015-ci ildə mühüm nailiyyətlər əldə etmiş idmançılarımız 823 medal qazanmışlar ki, onların da 321-i qızıl, 222-i gümüş, 280-si isə bürüncdür.

2016-cı ilin əvvəlinə ölkədə 2010-cu illə müqayisədə idman qurğularının sayı 16,2% artaraq 11,0 minə, idman və bədən tərbiyəsi ilə məşğul olanların sayı isə 4,5% artaraq 1724,7 min nəfərə çatmış və əhalinin ümumi sayının 18,0 faizini təşkil etmişdir. Əhali arasında futbol, voleybol, şahmat, yüngül atletika, dama, basketbol, sərbəst güləş, cüdo və stolüstü tennis kimi idman növlərinə daha çox maraq göstərilir.

Müstəqillik dövründə ölkənin şəhər və rayonlarında 39 Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmişdir. Xəzər, Abşeron, Ağcabədi, Neftçala, Goranboy, Tərtər, Yardımlı rayonlarında və Yevlax şəhərində idman komplekslərinin tikintisi, eləcə də Lənkəran Olimpiya İdman Kompleksinin yenidən qurulması işləri davam etdirilir.

2015-ci ilin iyununda Avropa tarixində ilk dəfə keçirilən Avropa Oyunlarına 17 gün ərzində Azərbaycan ev sahibliyi etmişdir.

Bu möhtəşəm yarış bir çox innovativ idman növünü özündə cəmləşdirmişdir. Yarışda 50 ölkəni təmsil edən 6 mindən çox idmançı mübarizə aparmışdır.

“Bakı 2015” Avropa Oyunları 18 idman obyektində keçirilmişdir. Onlardan 12-si daimi idman obyektləridir. Bakı Olimpiya Stadionu, BMX Veloparkı, Bakı Su İdmanı Sarayı, Avropa Oyunları Parkı və Bakı Atıcılıq Mərkəzi yeni inşa edilmişdir.

İyunun 12-dən 28-dək davam edən “Bakı 2015” Avropa Oyunlarında Azərbaycan milli komandası böyük uğurlara imza atmışdır. Belə ki, Azərbaycan idmançıları 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq ümumilikdə 2-ci yeri tutmuşdur.

Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən dövlət siyasətinin gücləndirilməsini təsdiq etməklə Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, dünya idman aləmində önəmli yer tutmasına şərait yaratmışdır.

Bununla yanaşı 2015-ci ildə Bakıda Şahmat üzrə Dünya Kuboku keçirilmişdir. Bu mötəbər yarışda dünyanın 45 ölkəsindən 128 ən güclü şahmatçı iştirak etmişdir.

Beynəlxalq Şahmat Federasiyasının Türkiyənin İstanbul şəhərində keçirilən 83-cü konqresində 42-ci Ümumdünya Şahmat Olimpiadasının 2016-cı ilin sentyabr ayında Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilmişdir.



## **İdman qurğuları** (ilin əvvəlinə)

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| **İdman qurğularının sayı - cəmi** | **9954** | **10259** | **10574** | **10798** | **11027** |
| onlardan: | | | | | |
| idman sarayları | 3 | 3 | 3 | 3 | 3 |
| olimpiya kompleksləri | 32 | 34 | 38 | 39 | 39 |
| tribunaları 1,5 min və daha çox yeri olan stadionlar | 61 | 66 | 72 | 74 | 75 |
| tribunaları 1,5 mindən az yeri olan stadionlar | 83 | 98 | 108 | 122 | 123 |
| kompleks idman qurğuları | 172 | 180 | 191 | 180 | 189 |
| üzgüçülük hovuzları | 62 | 73 | 80 | 84 | 105 |
| atıcılıq tirləri | 182 | 182 | 179 | 176 | 174 |
| **Bədən tərbiyəsi və idmanla məşğul olanların sayı, min nəfər** | **1660,4** | **1678,4** | **1685,1** | **1723,8** | **1724,7** |



## **Ölkənin idmançıları tərəfindən qazanılmış medallar**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Qazanılmış medalların sayı - cəmi | **705** | **735** | **782** | **805** | **823** |
| o cümlədən: | | | | | |
| qızıl | 270 | 255 | 280 | 275 | 321 |
| gümüş | 193 | 244 | 233 | 255 | 222 |
| bürünc | 242 | 236 | 269 | 275 | 280 |

## Əmək bazarı

Ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir. Ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur.

Bu dəyişiklikləri müşahidə etmək məqsədilə Dövlət Statistika Komitəsi 2003-cü ildən başlayaraq mütəmadi ev təsərrüfatlarında əhalinin iqtisadi fəallığının müayinəsini həyata keçirir. Əmək bazarına dair məlumatları özündə əks etdirən bu müayinənin 2015-ci ilin yekunlarına əsasən ölkə üzrə məşğul əhalinin tərkibində 15-29 yaşlı gənclərin payı 25,2 faiz və ya 1177,5 min nəfər təşkil etmişdir. Bu gənclərin 20,1 faizi ali, 11,0 faizi orta ixtisas, 4,0 faizi ilk peşə-ixtisas, 55,8 faizi tam orta, 9,0 faizi ümumi orta və 0,1 faizi ibtidai təhsilə malik olmuşdur.

**2015-ci ildə 15-29 yaşlı məşğul əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü** (min nəfər)

| Yaş qrupları | Cəmi | o cümlədən təhsil üzrə: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | ali | orta ixtisas | ilk peşə-ixtisas | tam orta | ümumi orta | ibtidai |
| **Məşğul əhali - cəmi** | 4671,6 | 763,3 | 497,5 | 256,0 | 2820,5 | 292,2 | 42,1 |
| onlardan 15-29 yaşlı gənclər | 1177,5 | 237,2 | 129,3 | 47,0 | 656,9 | 105,7 | 1,4 |
| o cümlədən: | | | | | | | |
| 15-19 yaşlı | 83,4 | 0 | 4,9 | 2,2 | 62,1 | 14,1 | 0,1 |
| 20-24 yaşlı | 425,8 | 71,9 | 48,1 | 20,8 | 241,5 | 42,7 | 0,8 |
| 25-29 yaşlı | 668,3 | 165,3 | 76,3 | 24,0 | 353,3 | 48,9 | 0,5 |

## 2015-ci ildə 15-29 yaşlı işsiz əhalinin təhsil səviyyəsi və yaş qrupları üzrə bölgüsü (min nəfər)

| Yaş qrupları | Cəmi | o cümlədən təhsil üzrə: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | ali | orta ixtisas | ilk peşə-ixtisas | tam orta | ümumi orta | ibtidai |
| **İşsiz əhali - cəmi** | 243,7 | 37,6 | 31,4 | 10,1 | 129,8 | 33,2 | 1,6 |
| | | | | | | | |
| onlardan 15-29 yaşlı gənclər | 125,0 | 17,5 | 13,5 | 2,7 | 77,2 | 13,8 | 0,3 |
| | | | | | | | |
| o cümlədən: | | | | | | | |
| 15-19 yaşlı | 15,4 | - | 0,3 | 0,5 | 13,0 | 1,5 | 0,1 |
| 20-24 yaşlı | 63,5 | 8,7 | 6,2 | 1,4 | 39,9 | 7,2 | 0,1 |
| 25-29 yaşlı | 46,1 | 8,8 | 7,0 | 0,8 | 24,3 | 5,1 | 0,1 |



## İnformasiya və Kommunikasiya Texnologiyaları

İnformasiyaya və biliklərə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, cəmiyyətin informasiya məhsulları və xidmətlərinə tələbatının dolğun ödənilməsi məqsədilə İKT infrastrukturuna və xidmətlərinə çıxışın təmin olunması müasir dövrün əsas prioritetlərindən birinə çevrilmişdir.

Azərbaycanda İKT-nin inkişafı üzrə görülmüş işlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmaqdadır. Belə ki, Azərbaycan Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları 2016" hesabatında "Şəbəkələşmə Hazırlığı İndeksi"nə görə əvvəlki mövqeyindən 4 pillə irəliləyərək dünyanın 139 ölkəsi arasında 53-cü yerə yüksəlmiş, habelə həmin hesabatda hökumətin gələcəklə bağlı İKT sektoruna yanaşması üzrə dünya ölkələri arasında 8-ci yeri, İKT sektorunun təbliğində hökumətin uğuruna görə 8-ci, hökumətin xidmətlərinin səmərəliliyində İKT-dən istifadə üzrə isə 12-ci yeri tutmuşdur. Beynəlxalq Telekommunikasiya İttifaqının "İnformasiya cəmiyyətinin ölçülməsi 2015" hesabatında isə Azərbaycan "İKT İnkişaf İndeksi"nə görə 167 ölkə arasında 67-ci yerdə qərarlaşmışdır. Həmin hesabatda İKT Qiymət Səbəti İndeksi üzrə isə Azərbaycan 170 ölkə içərisində 60-cı yerdə mövqe tutmuşdur.

**İKT sektoru** informasiya və məlumatların elektron formada saxlanılması, ötürülməsi və göstərilməsini əhatə edən istehsal və xidmət sahələrindən ibarətdir.

**İKT məhsulları** elektron formada məlumatların işlənməsi və rabitə funksiyasının, o cümlədən fiziki hadisələrin yazılması, ölçülməsi, ötürülməsi və göstərilməsi, habelə fiziki proseslərin nəzarəti funksiyalarını yerinə yetirən avadanlıqlar hesab olunur.

## İKT-nin əsas göstəriciləri

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Əhalinin hər 100 nəfərinə düşən mobil telefon abunəçilərinin sayı, abunəçi | 99 | 104 | 105 | 105 | 107 | 112 |
| Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı, nəfər | 46 | 65* | 70 | 73 | 75 | 77 |
| Mobil rabitə ilə əhatə olunmuş ərazidə yaşayan əhalinin ölkə əhalisində xüsusi çəkisi, faizlə | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,9 |
| Ay ərzində internetdən 20 saatlıq istifadə üçün orta tarif, manat | 1,9 | 1,5 | 1,4 | 1,3 | 1,3 | 1,3 |
| İnternetdən istifadə tarifinin adambaşına düşən orta aylıq ümumi milli gəlirə nisbəti, faizlə | 0,6 | 0,3 | 0,3 | 0,3 | 0,2 | 0,3 |
| Ay ərzində 100 dəqiqə mobil danışıq üçün orta tarif, manat | 7,7 | 7,4 | 7,1 | 7,0 | 6,9 | 6,9 |
| Mobil danışıq tarifinin adambaşına düşən orta aylıq ümumi milli gəlirə nisbəti, faizlə | 2,0 | 1,7 | 1,5 | 1,4 | 1,4 | 1,5 |
| İKT-nin inkişaf indeksi | 4,89 | 5,95 | 6,78 | 7,31 | 7,62 | 7,74 |

*- 2011-ci ilə qədər 7 yaşdan yuxarı əhali, 2011-ci ildən 15-74 yaş əhali qrupu üzrə

## Ev təsərrüfatlarında İKT sistemlərinin mövcudluğu və istifadəsi

| | | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında payı, faizlə | | 30,3 | 38,0 | 47,7 | 53,2 | 58,3 | 62,4 |
| Kompüterdən istifadə etmiş əhalinin ölkə üzrə bütün əhalinin sayında xüsusi çəkisi, faizlə | | 38,0 | 48,0 | 56,0 | 62,0 | 67,8 | 69,9 |
| Evdə internetə çıxışı olmuş ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında payı, faizlə | | 45,1 | 53,7 | 64,4 | 71,6 | 75,2 | 76,7 |
| İnternet istifadəçilərinin internetdən istifadə yerlərinə görə bölgüsü (son 3 ay ərzində), yekuna nisbətən faizlə | | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| | evdə (mənzildə) | 38,8 | 44,7 | 40,9 | 56,5 | 65,2 | 67,5 |
| | internet klubda | 14,6 | 10,1 | 7,7 | 6,5 | 3,7 | 3,5 |
| | iş yerində | 20,2 | 17,8 | 21,7 | 21,9 | 18,1 | 17,1 |
| | təhsil müəssisəsində | 8,4 | 8,9 | 9,5 | 9,7 | 8,8 | 8,1 |
| | kitabxanada | 0,6 | 0,5 | 0,6 | 0,5 | 0,5 | 0,5 |
| | digər yerlərdə | 17,4 | 18,0 | 19,6 | 4,9 | 3,7 | 3,3 |
| İnternet istifadəçilərinin internetdən istifadə məqsədlərinə görə bölgüsü (son 3 ay ərzində), yekuna nisbətən faizlə | | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| | informasiya axtarmaq | 33,6 | 29,9 | 29,6 | 29,1 | 29,0 | 29,4 |
| | əlaqə yaratmaq | 31,6 | 29,6 | 29,7 | 29,8 | 29,7 | 29,8 |
| | təlim və təhsil | 5,8 | 7,8 | 7,0 | 7,3 | 6,9 | 6,7 |
| | oyun, şəkil yükləmək və ya musiqiyə qulaq asmaq | 19,4 | 22,6 | 20,3 | 19,6 | 18,7 | 18,1 |
| | əmtəə və xidmətlərin sifarişi və ya satışı | 1,2 | 1,4 | 1,4 | 1,4 | 1,4 | 1,5 |
| | hakimiyyət orqanları ilə əlaqə (informasiyanın əldə edilməsi, sənədlərin yüklənməsi və göndərilməsi) | 8,4 | 8,7 | 12,0 | 12,8 | 14,3 | 14,5 |

## Müəssisələrdə İKT-dən istifadənin əsas göstəriciləri

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Kompüterdən istifadə etmiş müəssisələrin ölkədə fəaliyyət göstərən bütün müəssisələrdə xüsusi çəkisi, faizlə | 47,3 | 56,3 | 57,1 | 57,8 | 58,6 | 63,1 |
| Kompüterdən istifadə etmiş işçilərin fəaliyyət göstərən bütün müəssisələrdə işləyən işçilərin siyahı sayına nisbəti, faizlə | 15,8 | 17,7 | 18,5 | 21,6 | 23,2 | 28,0 |
| İnternetdən istifadə etmiş müəssisələrin fəaliyyət göstərən müəssisələrdə xüsusi çəkisi, faizlə | 27,9 | 35,6 | 40,9 | 42,2 | 45,7 | 48,0 |
| İnternetdən istifadə etmiş işçilərin fəaliyyət göstərən bütün müəssisələrdə işləyən işçilərin siyahı sayına nisbəti, faizlə | 7,1 | 10,3 | 10,9 | 14,4 | 16,5 | 20,4 |
| Veb səhifəsi (Web Page, Web Site) olan müəssisələrin fəaliyyət göstərən müəssisələrdə xüsusi çəkisi, faizlə | 4,9 | 9,0 | 9,2 | 9,3 | 10,4 | 11,9 |



## İKT sektoru və İKT məhsullarının ticarəti üzrə əsas göstəriciləri

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat | 1146,2 | 1236,4 | 1420,0 | 1528,0 | 1577,5 | 1589,2 |
| rabitə sektoru | 1065,4 | 1114,9 | 1289,2 | 1341,6 | 1381,3 | 1378,2 |
| İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 715,8 | 786,7 | 861,8 | 949,0 | 963,3 | 970,7 |
| rabitə sektoru | 669,7 | 714,6 | 783,5 | 839,4 | 855,5 | 858,1 |
| İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat | 204,0 | 301,4 | 322,3 | 192,4 | 147,2 | 338,4 |
| İKT məhsullarının idxalı, milyon manat | 180,2 | 262,6 | 249,2 | 203,8 | 214,4 | 268,6 |
| İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi, faizlə | 3,5 | 2,7 | 3,3 | 2,4 | 3,0 | 2,8 |
| İKT sektorunda çalışan işçilərin siyahı sayı, min nəfər | 18,3 | 18,5 | 19,0 | 19,3 | 19,9 | 20,1 |
| İKT sektorunda çalışan işçilərin iqtisadiyyatın bütün sahələri üzrə muzdlu işçilərin siyahı sayına nisbəti, faizlə | 1,3 | 1,3 | 1,4 | 1,3 | 1,3 | 1,3 |

## Əhalidə olan naqilli telefon aparatları və mobil abunəçilərin sayı
(min nömrə)



## Turizm

2015-ci ildə ölkədə fəaliyyət göstərən 536 mehmanxana və mehmanxana tipli obyektdə nömrələrin (otaqların) sayı 18,0 min vahid, birdəfəlik tutum 37,3 min yer olmuşdur. Mehmanxanalarda yerləşdirilmiş şəxslərin sayı 838,1 min nəfər, gecələmələrin sayı 1644,1 min adam-gecə olmuşdur. Yerləşdirilmiş şəxslərin 59,1 faizini xarici ölkə vətəndaşları təşkil etmişdir.

Ölkədə 31 beşulduzlu mehmanxana fəaliyyət göstərmişdir ki, nömrələrin 20,8 faizi, birdəfəlik tutumun 16,4 faizi, yerləşdirilmiş şəxslərin 50,6 faizi, gecələmələrin 39,9 faizi, gəlirlərin 63,9 faizi, bu sahədə çalışan işçilərin isə 40,0 faizi həmin obyektlərin payına düşmüşdür.

2015-ci ildə turizm sektorunda yaradılan əlavə dəyər 2,4 milyard manat olmuşdur ki, bu da ölkənin ümumi daxili məhsulunun 4,5 faizini təşkil etmişdir. Bu sahədə muzdla çalışan işçilərin sayı 49,4 min nəfər, əsas kapitala yönəldilmiş investisiyalar 1063,9 milyon manat olmuşdur.

2015-ci ildə turizm məqsədilə ölkəmizə gələn xarici vətəndaşların sayı 2014-cü illə müqayisədə 11,0 faiz azalaraq 1921,9 min nəfər olmuşdur. Əcnəbi ziyarətçilərin 34,8 faizi istirahət və əyləncə, 32,9 faizi işgüzar, 28,2 faizi qohumları (tanışları) ziyarət etmək, 1,9 faizi müalicə və sağlamlıq, 0,6 faizi dini ziyarət, 0,2 faizi bazarlıq (alış-veriş), 0,3 faizi tranzit, 1,1 faizi digər turizm məqsədilə ölkəmizə səfər etmişdir. Əcnəbi ziyarətçilərin turizm məqsədilə çəkdikləri xərclərinin həcmi 2014-cü illə müqayisədə 10,0 faiz azalaraq 1153,1 milyon manat olmuşdur.

2015-ci ildə 3256,2 min nəfər Azərbaycan Respublikası vətəndaşı xarici ölkələrə turizm məqsədi ilə səyahətə çıxmışdır ki, bu da əvvəlki illə müqayisədə 1,9 faiz azdır. Ölkə vətəndaşlarının 36,4 faizi işgüzar, 32,1 faizi istirahət və əyləncə, 18,2 faizi qohumları (tanışları) ziyarət etmək, 4,3 faizi müalicə və sağlamlıq, 4,1 faizi dini ziyarət, 3,5 faizi bazarlıq (alış-veriş) və 1,4 faizi digər turizm məqsədilə səfər etmişdir.

## Azərbaycana gələn xarici ziyarətçilərin səfərin məqsədləri üzrə dinamikası, min nəfər

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Ölkəyə gəlmiş xarici ziyarətçilərin sayı, cəmi** | **1561,9** | **1985,9** | **2129,5** | **2159,7** | **1921,9** |
| o cümlədən məqsədlər üzrə: | | | | | |
| biznes və işgüzar | 591,9 | 595,3 | 648,9 | 670,5 | 632,3 |
| istirahət və əyləncə | 519,8 | 687,8 | 705,2 | 709,9 | 668,8 |
| qohumların (tanışların) ziyarəti | 374,7 | 607,8 | 673,7 | 677,1 | 542,1 |
| müalicə, sağlamlıq | 33,3 | 43,0 | 46,2 | 46,3 | 36,5 |
| dini ziyarət | 10,5 | 13,2 | 13,6 | 13,7 | 11,5 |
| bazarlıq (alış-veriş) | 3,7 | 4,3 | 4,2 | 4,2 | 3,2 |
| tranzit | 4,0 | 5,3 | 5,7 | 5,8 | 4,9 |
| digər turizm məqsədi | 24,0 | 29,2 | 32,0 | 32,2 | 22,6 |



## Ümumi daxili məhsul

İqtisadiyyatının artım sürətinə görə Azərbaycan dünya ölkələri arasında ön sıralardadır. 2000-2015-ci illərdə Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə olmuş və iqtisadiyyatın inkişaf səviyyəsini səciyyələndirən əsas makrogöstərici olan ümumi daxili məhsul (ÜDM) son on il ərzində 5 dəfə artmışdır.

2015-ci ildə ölkədə 54,4 milyard manatlıq ümumi daxili məhsul istehsal edilmiş, onun hər nəfərə düşən həcmi 5703,7 manat və ya 5558,7 ABŞ dolları təşkil etmişdir.

2015-ci ildə iqtisadiyyatın qeyri-neft sektorunda yaradılmış əlavə dəyər əvvəlki illə müqayisədə 1,1 faiz artmış, onun ÜDM-də xüsusi çəkisi 8,0 faiz artaraq 69,3 faiz təşkil etmişdir.Ümumi daxili məhsulun 30,7 faizi neft sektorunun payına düşmüş və bu sektorda yaradılmış əlavə dəyər əvvəlki ilin eyni dövrünə nisbətən 1,2 faiz artmışdır.

**ÜDM və qeyri-neft ÜDM-nin artım templəri, faizlə**



## Əhalinin gəlirləri

Əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm göstəricilərdən biri olan əhalinin gəlirləri 2015-ci ildə əvvəlki illə müqayisədə 5,7 faiz artaraq 41,7 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi 4380,1 manat və ya ayda orta hesabla 365,0 manat təşkil etmişdir.

Hər nəfərə düşən gəlirlərin artım sürəti istehlak qiymətlərinin bahalaşmasını 0,5 faiz bəndi üstələmişdir.

Gəlirlərin 72,1 faizi son istehlak xərclərinə, 9,1 faizi vergilərin, sosial sığorta və üzvlük haqlarının, 2,9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 15,9 faizi isə yığıma yönəldilmişdir.

Son 5 il ərzində əhalinin hər nəfərə düşən gəlirləri 1,5 dəfə artmışdır.

### Əhalinin gəlirləri və xərcləri



| | 2014 | | 2015 | |
|---|---|---|---|---|
| | milyon manatla | əvvəlki ilə nisbətən, faizlə | milyon manatla | əvvəlki ilə nisbətən, faizlə |
| **Gəlirlər- cəmi** | **39472.2** | **105.1** | **41738.6** | **105.7** |
| İlkin gəlirlər | 35363.4 | 104.5 | 37553.9 | 106.2 |
| o cümlədən: | | | | |
| işçilərə əmək ödənişləri | 10776.1 | 104.3 | 10991.9 | 102.0 |
| sahibkarlıq fəaliyyətindən gəlirlər | 23375.9 | 103.7 | 25252.5 | 108.0 |
| mülkiyyətdən gələn gəlirlər | 1211.4 | 127.3 | 1309.5 | 108.1 |
| Alınmış cari və əsaslı transferlər | 4108.8 | 110.1 | 4184.7 | 101.8 |
| **Xərclər-cəmi** | **30799.6** | **109.9** | **35119.9** | **114.0** |
| Son istehlak xərcləri | 26582.6 | 110.1 | 30102.0 | 113.2 |
| Ödənilən cari transferlər | 3528.0 | 104.7 | 3790.3 | 107.4 |
| Mülkiyyətdən ödənilən gəlirlər | 689.0 | 137.6 | 1227.6 | 178.2 |
| Qənaətlər | 8672.6 | 90.9 | 6618.7 | 76.3 |
| Qeyri-maliyyə aktivlərinin yığımı | 2243.1 | 116.7 | 1952.3 | 87.0 |
| Maliyyə aktivlərinin yığımı | 6429.5 | 84.4 | 4666.4 | 72.6 |

## Ölkə iqtisadiyyatına investisiya qoyuluşu

2010-2015-ci illər ərzində ölkə iqtisadiyyatına 139,8 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Ölkə iqtisadiyyatı inkişaf etdikcə daxili investisiyaların rolu durmadan artmış, 2010-2015-ci illər ərzində investisiyaların 56,9 faizini daxili investisiyalar təşkil etmişdir. 2010-cu ildə ölkə iqtisadiyyatına yönəldilən birbaşa investiyaların xarici investisiyalarda payı 43,8 faiz təşkil edirdisə, 2015-ci ildə bu göstərici 69,8 faiz olmuşdur. Neft sektoruna qoyulmuş xarici investisiyaların birbaşa investisiyalarda payı 2014-cü ildə 83,6 faiz olmuşdursa, müvafiq olaraq 2015-ci ildə 88,5 faizə çatmışdır.

**İqtisadiyyata yönəldilən investisiyalar,** mlyn.ABŞ dolları

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **Cəmi investisiyalar** | **17591,4** | **21588,9** | **25777,8** | **27340,0** | **27907,5** | **19547,2** |
| o cümlədən: | | | | | | |
| neft sektoruna | 4967,4 | 5613,6 | 6317,9 | 6801,5 | 9553,2 | 9328,8 |
| qeyri-neft sektoruna | 12624,0 | 15975,3 | 19459,9 | 20538,5 | 18354,3 | 10218,4 |
| **Xarici investisiyalar** | **8247,8** | **8673,9** | **10314,0** | **10540,9** | **11697,7** | **10719,1** |
| o cümlədən: | | | | | | |
| neft sektoruna | 3624,9 | 4124,6 | 4584,8 | 5235,6 | 7290,6 | 7747,2 |
| qeyri-neft sektoruna | 4622,9 | 4549,3 | 5729,2 | 5305,3 | 4407,1 | 2971,9 |
| **Xarici birbaşa investisiyalar** | **3614,9** | **4293,8** | **5382,3** | **5976,2** | **8049,2** | **7483,1** |
| o cümlədən: | | | | | | |
| neft sektoruna | 2955,3 | 3407,8 | 4287,8 | 4935,2 | 6730,7 | 6622,7 |
| qeyri-neft sektoruna | 659,6 | 886,0 | 1094,5 | 1041,0 | 1318,5 | 860,4 |
| **Daxili investisiyalar** | **9343,6** | **12915,0** | **15463,8** | **16799,1** | **16209,8** | **8828,1** |
| o cümlədən: | | | | | | |
| neft sektoruna | 1342,5 | 1489,0 | 1733,1 | 1565,9 | 2262,6 | 1581,6 |
| qeyri-neft sektoruna | 8001,1 | 11426,0 | 13730,7 | 15233,2 | 13947,2 | 7246,5 |

## **Xarici investisiyalar,** mlyn.ABŞ dolları

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya** | **8247,8** | **8673,9** | **10314,0** | **10540,9** | **11697,7** | **10719,1** |
| ondan: | | | | | | |
| Maliyyə kreditləri | 3405,9 | 3692,5 | 3135,5 | 2655,8 | 1880,6 | 2210,2 |
| Neft sənayesinə | 2955,3 | 3407,8 | 4287,8 | 4935,2 | 6730,7 | 6622,7 |
| Birgə və xarici investisiyalı müəssisələr | 659,6 | 886,0 | 1094,5 | 1041,0 | 1318,5 | 860,4 |
| ondan: | | | | | | |
| Türkiyə | 147,5 | 89,1 | 185,9 | 401,3 | 481,4 | 220,4 |
| Niderland | 163,5 | 173,3 | 186,0 | 141,6 | 103,8 | 85,9 |
| ABŞ | 40,0 | 73,8 | 92,5 | 24,4 | 89,3 | 18,9 |
| İran | 3,2 | 11,2 | - | - | 40,5 | - |
| Almaniya | 17,0 | 32,5 | 45,6 | 15,1 | 51,0 | 60,1 |
| Rusiya | 11,7 | 35,0 | 21,8 | 36,1 | 13,6 | 15,9 |
| Böyük Britaniya | 144,0 | 148,8 | 149,3 | 136,0 | 153,5 | 173,1 |
| Birləşmiş Ərəb Əmirlikləri | 30,3 | 75,3 | 92,4 | 109,3 | 90,2 | 103,9 |
| İsveçrə | 11,7 | 26,7 | 79,4 | 18,2 | 18,9 | 15,7 |
| İtaliya | 10,3 | - | 22,1 | 21,3 | 21,2 | 14,6 |
| Fransa | 6,2 | 14,3 | 14,4 | 6,1 | 7,2 | 4,5 |
| Norveç | 3,6 | 6,9 | 14,7 | 8,1 | 5,3 | 3,6 |
| Yaponiya | 1,4 | 2,5 | 5,4 | 3,0 | 2,9 | 3,4 |
| Sair ölkələr | 69,2 | 196,6 | 185,0 | 120,5 | 239,7 | 140,4 |
| Digər investisiyalar | 1225,0 | 667,7 | 1794,2 | 1906,5 | 1750,9 | 1023,8 |
| Neft bonusu | 2,0 | 19,9 | 2,0 | 2,4 | 17,0 | 2,0 |



## Qiymətlər

İstehlak qiymətləri indeksi – orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir.

Hazırda istehlak səbətinə 561 adda mal və xidmət növü daxildir. Dövlət Statistika Komitəsi hər ay onların qiymətlərini müşahidə edir və ictimaiyyəti məlumatlandırır.

**İstehlak səbətinə daxil olan mal və xidmət növlərinin sayı**

| 585 | 569 | 565 | 547 | 561 |
|---|---|---|---|---|



| 2005 | 2008 | 2010 | 2014 | 2015 |
|---|---|---|---|---|

2015-ci ildə istehlak məhsulları və xidmətlərinin qiymətləri indeksi 104,0 faiz, o cümlədən ərzaq məhsulları üzrə 106,1 faiz, qeyri-ərzaq məhsulları üzrə 103,8 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri üzrə isə 101,2 faiz təşkil etmişdir.

# Bunları bilmək maraqlıdır

*(tələbələr üçün statistika)*

| | |
|---|---|
| Ümumi rəhbər | Tahir Budaqov |
| Məsul şəxs | Rafael Suleymanov |
| Ünvan | Bakı -AZ 1136,<br>İnşaatçılar prospekti 81,<br>Dövlət Statistika Komitəsi |
| Əlavə məlumat almaq üçün | tel: +(99412) 5386498<br><br>E-mail: sc@azstat.org<br>http://www.stat.gov.az |

